# Fənn olimpiadasının qalibləri təltif edilmişlər

Rayonun ümumtəhsil məktəblərinin bir qrup şagirdləri ötən dərs ilindəki təhsil uğurlarına görə qızıl, gümüş və bürünc medallarla təltif olunmuşlar. Onlar bu medallara bu il aprelin 22-də keçirilən Respublika Fənn Olimpiadasında göstərdikləri dərin biliyin nümayişinə görə layiq görülmüşlər.

İyulun 11-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev olimpiadada riyaziyyat fənni üzrə birinci yeri tutmuş və qızıl medala layiq görülmüş Soltannuxa kənd tam orta məktəbin XI sinif şagirdi Elsun Rzayevi, şəhər 4 nömrəli tam orta məktəbin XI sinif şagirdi, coğrafiya fənni üzrə ikinci yeri tutan Nigar Müzzəfərovanı, Azərbaycan dili fənni üzrə ikinci yerə layiq görülmüş və gümüş medala sahib olmuş IX sinif şagirdi Jalə Səfərəliyevanı, coğrafiya fənni üzrə ikinci yeri qazanmış və gümüş medala sahib olmuş Həmzəli kənd tam orta məktəbin IX sinif şagirdi Turac Tahirovanı, Azərbaycan dili fənni üzrə üçüncü yerin sahibi və olimpiadanın bürünc medalını əldə edən Zarağan kənd tam orta məktəbin XI sinif şagirdi Nilufər Cəbrayılbəylini, kimya fənni üzrə üçüncü yeri qazanmış və bürünc medal almış Məlikli kənd tam orta məktəbin XI sinif şagirdi Qönçə Bəxtiyarovanı, kimya fənni üzrə üçüncü yeri tutmuş və bürünc medalla təltif olunmuş Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi Sona Pənahlını qəbul etmişdir.



Səbuhi Abdullayev olimpiadanın final mərhələsində müvəffəqiyyət qazanmış məktəbliləri bu böyük uğurlar münasibətilə təbrik etmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan təhsil islahatlarından, təhsilin səviyyəsinin artırılması istiqamətində həyata keçirilən tədbirlərdən, dövlət tərəfindən təhsil müəssisələrinin əsaslı təmir edilməsi, yenilərinin tikilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülən işlərdən danışmış və bütün bunların Azərbaycanın xoşbəxt gələcəyinə hesablandığını diqqətə çatdırmışdır.

Soltannuxa kənd tam orta məktəbinin şagirdi Elsun Rzayev rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə səmimi qəbula görə özünün və olimpiada iştirakçıları olan yoldaşlarının adından dərin minnətdarlığını bildirmişdir.

Rayon təhsil şöbəsinin müdiri əvəzi Yaşar Nəzirov çıxış edərək Qəbələnin ənənəvi təhsil nailiyyətlərinin davamlı olacağını, şagirdlərin bilik və bacarıqlarının modern əsaslarla inkişaf etdirilməsi üçün müəllimlərin ən mütərəqqi metodlara istinadən bütün səylərini birləşdirəcəyini qeyd etmişdir.

Görüşdə olimpiada qalibləri RİH-nin Fəxri Fərmanları ilə təltif olunmuş və onlara xatirə hədiyyələri təqdim edilmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**"Qəbələ"**
**Foto İlkin Vəlizadənindir.**

# Qəbələdə sosial-iqtisadi inkişaf uğurla davam edir

## 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat

# MƏRUZƏSİ

(Əvvəli 2-ci səhifədə).

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 07 aprel 2016-cı il tarixli, 1941 nömrəli Sərəncamının icrası ilə əlaqədar müvafiq işlər davam etdirilmiş, yarım il ərzində 3-ü xidmət, 13-ü kənd təsərrüfatı sahəsi olmaqla 16 nəfər özünüməşğulluq proqramının iştirakçısı öz bizneslərinə başlamaları üçün tələb olunan aktivlərlə təmin olunmuşlar. Həmin vətəndaşlardan 8 nəfər ətlik heyvandarlıqla, 4 nəfər südlük heyvandarlıqla, 1 nəfər arıçılıqla, 1 nəfər kiçik qəlyanaltı sahəsində, 1 nəfər kompüter təmiri, çap və poliqrafiya sahəsində, 1 nəfər isə avtomobil təmiri sahəsində fəaliyyət göstərirlər. Özünüməşğulluq proqramının iştirakçılarından 7 nəfərə buzovlarla birlikdə 27 baş iri buynuzlu heyvan, 5 nəfərə 122 baş xırdabuynuzlu heyvan, 1 nəfərə kompüter və çap avadanlığı, 1 nəfərə 15 arı ailəsi, 1 nəfərə avtomobil təmiri üçün alətlər, 1 nəfərə isə qəlyanaltı üçün tələb olunan avadanlıqlar verilmişdir.

Bu il iyunun 7-də aktiv məşğulluq tədbiri olan növbəti əmək yarmarkası keçirilmişdir. Yarmarkada iştirak edən vətəndaşların 71 nəfərinə göndəriş verilmiş, onlardan 63 nəfəri işlə təmin edilmişdir.

Rayonun yerli gəlirləri 2017-ci ilin birinci yarısının yekunlarına görə 5.625,1 min manat proqnoza qarşı 5.680,6 min manat (101,0 %) və ya 55,5 min manat çox yerinə yetirilmişdir. Yerli gəlirlərə aid olan məbləğ 2.820,3 min manat proqnoza qarşı 2.781,4 min manat (98,6 %) və ya 38,9 min manat az, yerli xərcləri 3.231,0 min manat proqnoza qarşı 2.676,8 min manat (82,8 %) və ya 554,2 min manat az icra olunmuşdur. Gəlirlərin mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 2.790,0 min manat proqnoza qarşı 2.886,2 min manat (103,4 %) və ya 92,2 min manat çox icra olunmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirin 6 növü üzrə büdcəyə 204,6 min manat az vəsait daxil olmuşdur. Digər 4 növ gəlirlər üzrə 165,7 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 38,9 min manat az yerinə yetirilmişdir.

Yerli gəlirlər üzrə ümumilikdə daxil olmuş 5.680,6 min manat vəsaitdən 2.781,4 min manatı rayonun yerli gəlirlərinə, 13,0 min manatı qanunamüvafiq qaydada "Avtomobil yolları" Məqsədli Büdcə Fonduna, 2.886,2 min manatı isə mərkəzləşdirilmiş gəlirlərə aid edilmişdir. 6 ay ərzində müəyyən olunmuş müvafiq bölgüyə əsasən xərclərin gəlirlərlə təmin olunmadığı üçün müdafiə olunan və kommunal xərclərin ödənilməsi məqsədilə mərkəzləşdirilmiş gəlirlərdən müvəqqəti olaraq Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Ağentliyindən 150,0 min manat ssuda alınmışdır.

Rayonun yerli xərcləri səhiyyə xərcləri üzrə 206,2 min manat, qanunvericilik və icra hakimiyyəti orqanlarının saxlanması xərcləri üzrə 95,8 min manat, məktəbəqədər təhsil xərcləri üzrə 57,2 min manat, elm xərcləri üzrə 1,5 min manat, kommunal təsərrüfatı xərcləri üzrə 179,2 min manat, sair xərcləri üzrə 14,3 min manat az olmaqla, ümumilikdə rüb ərzində 554,2 min manat təyinatdan az icra olunmuşdur.

Əmək haqqı və ona üstəlik xərc maddələrinin kəsrlə icra olunmasının səbəbi gəlirlər üzrə vəsaitin iyun ayının axırıncı günü daxil olması ilə bağlı səhiyyə işçilərinin əmək haqqının növbəti aya keçməsidir. Digər xərclərin təyinatdan az icra olunmasının səbəbi isə 6 ay ərzində müəyyən olunmuş bölgü əsasında 410,6 min manat xərcin gəlirlə tam təmin olunmamasıdır.

Yerli büdcənin hesabında və təşkilatların ayrı-ayrı xərc maddələri üzrə limit qalığında 01 iyul 2017-ci il tarixə 254,6 min manat vəsait qalığı yaranmışdır.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Altı ay ərzində bütün növ istehlakçı qruplar tərəfindən 55.305,8 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 4.688,4 min manata qarşı 4.100 min manat vəsait toplanaraq yarımillik yığım planı 87,5 % yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 52,5 %, dövlət müəssisələri üzrə 61,4 %, ticarət xidməti üzrə 92,7 %, özəl sənaye üzrə 90,6 %, əhali qrupu üzrə isə 95,9 % olmuşdur.

10/6 kilovoltluq hava xəttinin 7 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. 10 kilovoltluq Nic, Bum, Zarağan, Mıxlıqovaq, Dizaxlı, Tüntül, Vəndam elektrik verilişi xətlərində 150 ədəd fiziki köhnəlmiş ağac dayaq metal dayaqlarla əvəzlənmiş, 12.750 metr məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. 4 ədəd 10/0,4 kilovoltluq transformator yarımstansiyalarında 250 amperlik ayırıcı quraşdırılmış, 10 kilovoltluq Vəndam və Bum hava xəttində 2 ədəd yeni güc mərkəzi istismara verilmişdir. Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin xidməti ərazisində 13 km məsafədə 0,4 kilovoltluq fiziki köhnəlmiş və istismara yararsız naqillər yenilənmiş, 337 ədəd fiziki köhnəlmiş 0,4 kilovoltluq ağac dayaqlar yeni müasir tipli dəmir beton və dəmir dayaqlarla əvəz edilmişdir. 10 kilovoltluq Mıxlıqovaq hava xəttindən qidalanan 160 kilovatlıq transformatorun 0,4 kilovoltluq hava xətləri tamamilə özünü daşıyan izolyasiyalı naqillərlə işlənilmişdir. Əhali sektorunda 347 ədəd yeni sayğac quraşdırılmış, 1174 ədəd qüsurlu sayğac yenisi ilə əvəzlənmişdir.

Təbii qaz istehlakçıları tərəfindən 25.068,6 min kubmetr təbii qaz istehlak edilmiş, 3.486,9 min manata qarşı 3.312,7 min manat vəsait toplanaraq ümumi yığım məbləği 95 % təşkil etmişdir. Həmin göstərici əhali sektoru üzrə 95,1 %, büdcə təşkilatları üzrə 80 %, sənaye, kommersiya və digər təşkilatlar üzrə 107 %, kommunal təşkilatlar üzrə isə 170 % təşkil etmişdir.

Altı ay ərzində 994 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 17.537-yə çatdırılmışdır. Qəbələ Xidmət Sahəsi tərəfindən demontaj boru ilə 818 p/m yeni xətt çəkilmiş, 10 ədəd təzyiq tənzimləyicisi quraşdırılmış, 3.213 sızma ləğv edilmiş, işləməyən 94 sayğac əvəzlənərək dövlət yoxlamasına göndərilmişdir.

(Ardı 4-cü səhifədə).